

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 21 (21.431)

3 fevral 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də BMT-nin baş katibinin müavini və BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının icraçı katibi xanım Şamşad Axtarı qəbul edib.

Görüşdə Azərbaycan ilə BMT arasında əlaqələrin inkişafından məmnunluq ifadə edilib, xanım Şamşad Axtarın ölkəmizə bu səfərinin əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyəti qeyd olunub. Söhbət zamanı regional əməkdaşlığın genişləndirilməsinin önəmi vurğulanıb, dünyada mövcud olan maliyyə böhranı şəraitində iqtisadiyyatın şaxələndirilməsinin əhəmiyyətindən danışılıb, Azərbaycanda bu istiqamətdə işlərin uğurla həyata keçirildiyi bildirilib.

Görüşdə, eyni zamanda, Azərbaycan-BMT əməkdaşlığının perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Yunanıstanın xarici işlər naziri Nikos Kotziasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 2 fevral tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Milli Paralimpiya Komitəsinin yaradılmasının 20 illik yubileyi münasibətilə və Azərbaycanda paralimpiya hərəkatının inkişafında xidmətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının əməkdaşı da vardır.

**Məmmədov Vüqar Ənvər oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişdir.

## İnzibati-İqtisadi Məhkəmənin yaradılmasının 90 illik yubileyi qeyd edilib



***Dünən Naxçıvan Muxtar Respublikası İnzibati-İqtisadi Məhkəməsinin yaradılmasının 90 illik yubileyi münasibətilə tədbir keçirilib.***

Əvvəlcə tədbir iştirakçıları ulu öndərimizin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Naxçıvan Muxtar Respublikası İnzibati-İqtisadi Məhkəməsinin binasında davam etdirilən tədbiri giriş sözü ilə məhkəmənin sədri Hicran Muradov açaraq məruzə edib. Bildirib ki, Naxçıvan MSSR Xalq Komissarları Soveti yanında Müvəqqəti Arbitraj Komissiyası Naxçıvan MSSR Xalq Komissarları Sovetinin 2 fevral 1926-cı il tarixli qərarı ilə yaradılıb. Bu Arbitraj Komissiyasının təsis edilməsi və səlahiyyətinə daxil olan məsələlərin dairəsi onu Naxçıvan Muxtar Respublikası İnzibati-İqtisadi Məhkəməsinin sələfi kimi qiymətləndirməyə və beləliklə, İnzibati-İqtisadi Məhkəmənin yaranma tarixi olaraq məhz 1926-cı il 2 fevral tarixini qəbul etməyə əsas verir. "Azərbaycan Respublikasının Arbitraj Məhkəməsi haqqında" 25 fevral 1992-ci il tarixli Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 12 avqust 1994-cü il tarixli Qərarına əsasən, Naxçıvan Muxtar Respublikasının Arbitraj Məhkəməsi yaradılıb. Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarına, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 17 iyun 1999-cu il tarixli Fərmanına əsasən, Naxçıvan Muxtar Respublikasının Arbitraj Məhkəməsi İqtisad Məhkəməsi adlandırılıb. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 iyul tarixli Fərmanının 1.5-ci bəndinə əsasən, Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsinin əsasında Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi yaradılıb.

Qeyd olunub ki, məhkəmə ötən dövrdə öz funksiyasını yerinə yetirməyə səy göstərib. 2011-ci illə müqayisədə 2015-ci ilə Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi tərəfindən baxılmış mülki və inzibati mübahisələrə dair işlərin sayında 120,9 faiz, 2014-cü illə müqayisədə 19,4 faiz, 2015-ci ildə 148 iş artım olub. Bu göstərici onu deməyə əsas verir ki, əhalinin məhkəməyə və ədalət mühakiməsinin obyektiv şəkildə həyata keçirilməsinə inamı gün keçdikcə daha da artmaqdadır.

Yaradılan şəraitə görə kollektiv adından muxtar respublika rəhbərinə minnətdarlığını bildirən Hicran Muradov deyib ki, qanunvericiliyə gətirilən yeniliklər, məhkəmələrin maddi təminat məsələlərinə göstərilən diqqət və qayğı, o cümlədən hakimlərin, məhkəmə işçilərinin iş şəraitinin müasir tələblər səviyyəsinə çatdırılması Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi üzrə vəzifələrin keyfiyyətlə yerinə yetirilməsinə, insan hüquq və azadlıqlarının səmərəli şəkildə qorunmasına xidmət edir. İnzibati-İqtisadi Məhkəmə ədalət mühakiməsi ilə yanaşı, əhali arasında hüquqi maarifləndirmə işinin gücləndirilməsinə, məhkəmə işçilərinin ixtisaslarının artırılmasına yönələn tədbirlər həyata keçirir. Kollektiv bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəkdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov çıxış edərək muxtar respublikada məhkəmə orqanlarına göstərilən dövlət qayğısından danışıb, kollektivi 90 illik yubiley münasibətilə təbrik edib, onlara işlərində uğurlar arzulayıb. Vurğulayıb ki, ümummilli liderimizin Azərbaycana rəhbərliyinin hər iki dövründə ədalət mühakiməsinin təmin edilməsi, ali prinsip olan insan və vətəndaş hüquqlarının qorunması diqqət mərkəzində saxlanılıb. Bu diqqətin nəticəsidir ki, məhkəmə-hüquq sistemində islahatlar keçirilib, ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında məhkəmələrin səlahiyyətləri artırılıb və fəaliyyətlərinin müasirləşdirilməsi üçün tədbirlər görülüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikasında məhkəmə-hüquq sistemi böyük bir yol – təşkilatlanma mərhələsi keçib. Bu inkişafın ötən əsrin 70-80-ci illərini əhatə edən mərhələsi xüsusilə əlamətdardır. Ulu öndər Heydər Əliyevin həmin dövrdə elan etdiyi ədalət prinsipi cəmiyyətin digər sahələri kimi, məhkəmə-hüquq sisteminin də yeni tələblər səviyyəsində qurulmasını nəzərdə tuturdu.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi də səmərəli hüquqi təsisat kimi formalaşıb, muxtar respublikanın məhkəmə sistemində özünəməxsus yer tutub. İnzibati-İqtisadi Məhkəmə muxtar respublikada idarə və digər mənsubiyyətindən və tabeliyindən asılı olmayaraq, hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən və qanunla müəyyən edilmiş qaydada fərdi sahibkar statusu əldə edən fiziki şəxslər arasında yaranan, iqtisadi və hüquqi statusundan asılı olmayaraq, şəxslər arasında yaranan inzibati mübahisələrə dair işlərə baxır. Bununla da, İnzibati-İqtisadi Məhkəmə qeyd olunan sahədə ədalət mühakiməsini həyata keçirməklə bərabər, inzibati orqanlar tərəfindən insan hüquq və azadlıqlarına əməl olunması sahəsində qarşıya qoyulan vəzifələrin icrasında mühüm rol oynayır.

Kollektivi 90 illik yubiley münasibətilə təbrik edən Cəlil Rüstəmov qeyd edib ki, İnzibati-İqtisadi Məhkəmə hərtərəfli qayğı ilə əhatə olunub, hakimlərin və məhkəmə işçilərinin əməyinin qiymətləndirilməsi diqqət mərkəzində saxlanılıb.

Sonra Cəlil Rüstəmov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Rəşadətli əməyə görə" nişanı ilə təltif haqqında" 2016-cı il 1 fevral tarixli Sərəncamını oxuyub.

Sonda məhkəmənin iki əməkdaşına "Rəşadətli əməyə görə" nişanı təqdim edilib, bir neçə əməkdaş isə qiymətli hədiyyələrlə mükafatlandırılıb.

**Səbuhi HÜSEYNOV**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən 2015-ci il ərzində işəgötürənlər tərəfindən işçilər üçün müvafiq əmək şəraitinin yaradılması, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət etməsi, həmçinin işçilərin hüquqlarının qorunması məqsədilə qanunvericiliyə uyğun olaraq əmək müqavilələrinin bağlanması istiqamətində bir sıra tədbirlər həyata keçirilib.***

## Əməyin mühafizəsinin təşkili diqqət mərkəzindədir

Xidmətdən verilən məlumatda bildirilir ki, 2015-ci ildə işçilər üçün müvafiq əmək şəraitinin yaradılması, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət edilməsi ilə əlaqədar 94 müəssisə və tikinti sahəsində nəzarət həyata keçirilib, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyən 132 işçi müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılıb, 225 işçi isə həmin vasitələrlə yerində təmin olunub. Əməyin mühafizəsi qaydalarının pozulması və istehsalatda xəsarətalma ilə nəticələnən hadisələrlə bağlı tərtib olunan "İnzibati xəta haqqında protokol"a uyğun olaraq 6 işəgötürənə müvafiq olaraq 6200 manat məbləğində cərimə tətbiq edilib.

Qeyd olunan dövrdə Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə birlikdə tikinti aparılacaq meydançalarda müvəqqəti qurğuların qurulması və normal əmək şəraitinin yaradılmasına nəzarət məqsədilə, ümumilikdə, 34 tikinti sahəsinə baxış keçirilib və müvafiq akt tərtib olunaraq həmin tikinti sahələrində inşaat işlərinə başlanmasına razılıq verilib. Bundan əlavə, işə götürülən şəxslərlə əmək müqavilələrinin bağlanması və əməkhaqlarının real göstərilməsinə nəzarət məqsədilə 414 sahibkarlıq obyektinə baxış keçirilib, 278 işçi ilə yeni əmək müqaviləsinin bağlanmasına və 981 halda isə əmək müqaviləsində əməkhaqqının real göstərilməsinə nail olunub.

"İstehsalatda baş vermiş bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə əlaqədar olaraq Dövlət Baş Sığorta Agentliyinin nümayəndələri ilə birlikdə müvafiq sahibkarlıq subyektlərində araşdırmalar aparılıb və 290 müəssisədə işçilərin icbari sığorta olunmalarına dair müqavilənin bağlanmasına nail olunub.

Məlumatda o da qeyd olunur ki, 2015-ci ildə Naxçıvan Regional Peşə Tədris Mərkəzində "Əməyin mühafizəsi və texniki təhlükəsizlik norma, qayda və standartlarına əməl olunması" və "Əmək münasibətlərinin rəsmiləşdirilməsi zamanı qanunvericiliyin tələblərinə əməl olunması" mövzularında maarifləndirici kurslar təşkil olunub. Kurslara muxtar respublikada fəaliyyət göstərən 86 müəssisədən 93 nümayəndə cəlb edilib. Kurslarda Dövlət Əmək Müfəttişliyi Xidmətinin nümayəndələri ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Səhiyyə Nazirliyinin, Dövlət Baş Sığorta Agentliyinin, Həmkarlar İttifaqları Şurasının və Dövlət Miqrasiya Xidmətinin nümayəndələri tərəfindən müvafiq mövzular tədris olunub. İstehsalat xüsusiyyətləri nəzərə alınmaqla müəssisələrdə əməyin mühafizəsi mütəxəssislərinin biliklərinin və peşəkarlıq səviyyələrinin artırılması məqsədilə seminarlar keçirilib, seminar iştirakçılarına əməyin mühafizəsinə dair bukletlər təqdim edilib, həmçinin əməyin mühafizəsi sahəsinə dair müxtəlif mövzuda videoçarxlar hazırlanıb.

**Xəbərlər şöbəsi**

# Hər addımda tərəqqi, hər sahədə uğur var

## “Kənd təsərrüfatı ili” Babək rayonunda yüksək nəticələrlə yadda qalıb

***Bu gün muxtar respublikamızda inzibati ərazi vahidliyindən asılı olmayaraq, istənilən yaşayış məntəqəsinin inkişafı onun ümumi mənzərəsindən bəlli olur. Fərqi yoxdur, bu ərazi kənd, qəsəbə və ya şəhər olsun. Yaxud əhalisinin sayı çox və ya az olsun. Muxtar respublikamızın il-dən-ilə inkişaf edən bölgələrinin fonunda müasir inkişafın bütün sahələri əhatə etdiyini görmək mümkündür. Belə abad bölgələrdən biri də xalqımızın qəhrəman oğlunun adını daşıyan Babək rayonudur.***



Babək rayonu ümummilli lider Heydər Əliyevin təşəbbüsü və xeyir-duası ilə 1978-ci ildə yaradılıb. Ulu öndərin Azərbaycanda hakimiyyətdə olduğu hər iki dövrdə Babək rayonu hərtərəfli inkişaf yolu keçib. Son 20 ildə rayon özünün yeni inkişaf yoluna qədəm qoyub, xeyli sayda kənd yaşayış məntəqələri abadlaşdırılıb, yerli istehsal müəssisələrinin sayı artırılıb, kənd təsərrüfatı inkişaf etdirilib, rayon mərkəzi olan Babək qəsəbəsi öz simasını tamamilə dəyişib. Yola saldığımız 2015-ci il isə Babək rayonu üçün, sözün həqiqi mənasında, uğurlu il olub. “Kənd təsərrüfatı ili”ndə istər aqrar sahədə, istərsə də digər sahələrdə hərtərəfli uğurların qazanılmasına nail olunub, bölgədə muxtar respublika əhəmiyyətli mühüm layihələr həyata keçirilib.

Ötən yazılarımızın birində belə bir ifadə işlətmişdik ki, harada tikinti varsa, orada inkişaf var. Bunu belə qəbul etmək olar ki, tikinti-quruculuq tədbirlərinin aparılması istənilən ölkədə sosial və iqtisadi inkişafın əsas göstəricisidir. Fərqi yoxdur, tikilən obyekt hər hansı inzibati bina, yaşayış kompleksi, istehsal müəssisəsi və ya avtomobil yolu olsun. Məhz bu baxımdan həyata keçirilən tikinti-quruculuq, abadlıq tədbirləri böyük əhəmiyyət daşıyır. Babək rayonu da ötən il bu sahədə görülən işlərin həcmi ilə fərqlənir.

Əvvəlki illərdə olduğu kimi, 2015-ci ildə də rayonda abadlıq və quruculuq işləri uğurla davam etdirilib. Belə ki, əhalini keyfiyyətli rabitə xidməti ilə təmin etmək üçün Babək qəsəbəsində rayon Rabitə İdarəsi və “Naxçıvanpoçt” Məhdud Məsuliyyətli Cəmiyyətinin Babək rayon filialı üçün yeni inzibati bina tikilib istifadəyə verilib. Bina ən müasir rabitə avadanlıqları ilə təmin edilib və ətrafı abadlaşdırılıb. Qəsəbədəki 5 mərtəbəli yaşayış binasının təmir edilməsi isə burada yaşayanların böyük sevincinə səbəb olub. Yaşayış binasının ətrafında salınmış yeni park əhalinin istirahəti üçün nəzərdə tutulub. Babək qəsəbəsində 2 nömrəli tam orta məktəbin, kənd və xidmət mərkəzlərinin yeni binaları da 2015-ci ilin quruculuq ərmağanlarındandır. Bununla yanaşı, Heydər Əliyev prospektində 500 metr məsafədə daş hasar çəkilib və müasir arxitektura üslubunda üzlənib ki, bu da qəsəbəyə uzanan avtomobil yoluna xüsusi yaraşıq verir.

Həyata keçirilən quruculuq tədbirlərindən kənd yaşayış məntəqələrinə də xeyli pay düşüb. Belə ki, ötən il Xal-xal kəndində məktəb binası, kənd və xidmət mərkəzləri istifadəyə verilib. Nehrəm kənd 2 nömrəli tam orta məktəbin binası yenidənqurma işlərindən sonra qapılarını müəllim və şagirdlərin üzünə açıb.

Babək rayonunda ötən ilin ən yaddaqalan hadisəsi ölkə başçısı cənab İlham Əliyevin muxtar respublikaya səfəri çərçivəsində rayonda istifadəyə verilən bir sıra obyektlərin açılış mərasimində iştirak etməsidir. 2015-ci il dekabrın 1-də Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə rayonda Günəş Elektrik Stansiyası, 7 yaşayış məntəqəsini birləşdirən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolu və Nehrəm kənd 2 nömrəli tam orta məktəb istifadəyə verilib. Mühüm hadisələrdən biri də bu əlamətdar tarixdən bir həftə sonra – dekabrın 8-də böyük iqtisadi əhəmiyyətə malik Vayxır sol sahil suvarma və drenaj şəbəkəsinin istismara verilməsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə istifadəyə verilən bu şəbəkə 1974 təsərrüfata məxsus pay torpaqlarını və 450 hektar bələdiyyə torpaqlarını əhatə edir. Şəbəkənin tikintisi zamanı 241,5 kilometr uzunluğunda müxtəlif diametrlik suvarma xətləri çəkilib. Bu layihənin reallaşdırılması nəticəsində Babək rayonu Nehrəm kəndinin 1170 hektar və Culfa rayonu Bənəniyar kəndinin 1050 hektar olmaqla, ümumilikdə, 2220 hektar torpaq sahəsində müasir suvarma sistemi qurulub. Yeri gəlmişkən qeyd edək ki, ötən il rayon ərazisində yeni salınan yaşıllıqları suvarmaq üçün 13 min 300 metr uzunluğunda müxtəlifölçülü plastik və metal borularla suvarma xətləri çəkilib.

2015-ci ildə içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması da diqqət mərkəzində saxlanılan məsələlərdən olub. Bu məqsədlə rayonun Babək qəsəbəsi, Nehrəm, Şəkərabad və Araz kəndlərində içməli su və kanalizasiya xətlərinin, Badaşqan kəndində isə içməli su sistemlərinin çəkilişi və Yarımca kəndində içməli su xətti üçün su anbarının tikintisi davam etdirilib. Ümumilikdə, ötən il Babək qəsəbəsində, Badaşqan, Nəcəfəlidizə, Şıxmahmud, Nehrəm, Cəhri, Payız, Məzrə, Çeşməbasar, Şəkərabad, Xal-xal, Aşağı Buzqov, Qahab, Yuxarı Uzunoba, Aşağı Uzunoba, Zeynəddin, Nəhəcir, Gülşənabad kəndlərində müxtəlifölçülü plastik və metal borularla 10 min 836 metr yeni içməli su xətləri çəkilib.

Təbii ki, “Kənd təsərrüfatı ili”nin uğurlu nəticələrindən danışarkən aqrar nailiyyətlərdən bəhs etməmək düzgün olmazdı. Kiçik detallara varmadan qeyd edək ki, statistik rəqəmlər bu sahənin inkişafındakı nailiyyətləri bir daha gözlərimiz önündə canlandırır. Babək Rayon İcra Hakimiyyətindən verilən məlumata görə, 2015-ci ildə 10 min 680 hektar dənli və dənli-paxlalı bitkilərin əkini sahəsindən 33 min 3 ton məhsul əldə edilib. Belə ki, 7869 hektar sahədən 24 min 694 ton buğda, 2607 hektar sahədən 7640 ton arpa, 204 hektar sahədən 669 ton dənli-paxlalılar, 109 hektar sahədən 425 ton qarğıdalı, 85 hektar sahədən 200 ton günəbaxan, 449 hektar sahədən 8239,2 ton kartof, 2039 hektar sahədən 22 min 845 ton tərəvəz məhsulları, 1507 hektar sahədən 22 min 320 ton bostan məhsulları, meyvə bağlarından 6788 ton meyvə, üzüm bağlarından 5636 ton məhsul yığılıb.

Əvvəlki illərdə olduğu kimi, 2015-ci ildə də Babək rayonunda ekoloji tarazlığın qorunması məqsədilə keçirilən iməciliklərdə yeni meyvə bağları salınıb, yol kənarlarında, qəsəbə və kəndlərdə yaşıllaşdırma işləri aparılıb. İl ərzində 26,4 hektar ərazidə ağac əkini aparılıb ki, bunun da 16,9 hektarını meşəsalma, 9,5 hektarını isə meşəbərpa tədbirləri təşkil edib.

Rayonda əhalinin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzində saxlanılıb, əmək ehtiyatlarından səmərəli istifadə edilib. 2015-ci ildə rayon Məşğulluq Mərkəzi tərəfindən 500 nəfər vətəndaş qeydə alınıb, onlardan 359 nəfəri işlə təmin olunub. Bundan əlavə, 130 nəfər peşə hazırlığına cəlb olunub, 59 nəfər ictimai işlərə, 3 nəfər kvota yerlərinə göndərilib. Həmin dövrdə keçirilən 3 əmək yarmarkasında 89 nəfərə işə göndəriş verilib, 85 nəfər isə işlə təmin olunub.

*Ümumiyyətlə, 2015-ci il Babək rayonunda əldə olunmuş uğurlarla yadda qalıb. Qazanılmış nailiyyətlər digər sahələri də əhatə edir. Rayonda hərtərəfli inkişafın davamlı xarakter alması 2016-cı ildə də qarşıya qoyulmuş vəzifə və tapşırıqların layiqincə yerinə yetirilməsinə böyük inam yaradır. Çünki dəyişdirilmiş hədəflərə doğru inamla irəliləmək, xalqa və dövlətə sədaqətlə xidmət etmək bu bölgənin zəhmətkeş insanlarının əsl həyat amalına çevrilib.*

**Səbuhi HƏSƏNOV**

***Tarixən dalğalı iqtisadi inkişaf problemi dünyada həmişə özünü göstərmiş və bu, ölkələrin iqtisadiyyatına müxtəlif dərəcədə təsir etmişdir. Buna görə də qlobal rəqabətə qoşulan ölkələrin iqtisadiyyatının şaxələndirilməsi və onun ayrıca bir sahədən asılılığının aradan qaldırılması həmişə milli iqtisadiyyatın inkişafının əsas problemlərindən hesab olunur. Bu baxımdan müasir şəraitdə biliklərə əsaslanan informasiya iqtisadiyyatının qurulması və daha çox hazır məhsul istehsalı üzrə ixtisaslaşan iqtisadi model yaradılması qarşımızda duran əsas vəzifələrdəndir.***

# Biliklərə əsaslanan iqtisadiyyat qurmaq dövrün tələbidir

Hazırda cəmiyyətimizin müxtəlif sahələrində – iqtisadiyyatda, sosial və humanitar sahələrdə informasiyanın artan rolu açıq-aydın görünməkdədir. Buna görə də müasir iqtisadi idarəetmənin tələblərindən biri idarəetmənin sadələşdirilməsi üçün informasiyanın gücündən tam istifadə olunması, onun səmərəliliyinin artırılmasıdır.

Bu gün qlobal dünyanın ən mühüm tələblərindən biri informasiya cəmiyyətinə uyğunlaşmaqdır. Hazırda ölkəmizin bu sahədəki nailiyyətləri müasir sivil cəmiyyət quruculuğunun ən yaxşı nümunələrindən biridir. Müstəqilliyin qazanılmasından keçən qısa müddət ərzində xalqımız öz tarixi-mənəvi köklərinə bağlı qalmaqla dünyanın əsas iqtisadi gücləri ilə qarşılıqlı əməkdaşlıqda və dünya mədəniyyətinə inteqrasiyada böyük nailiyyətlər əldə etmişdir. Bu gün, demək olar ki, hər bir azərbaycanlı dünyada gedən iqtisadi, mədəni və demokratik proseslər haqqında kifayət qədər məlumatlıdır. Elm, təhsil və idarəçilikdə əldə olunmuş nailiyyətlərimiz milli sərvətimizin bir parçası kimi xalqımızın ümummilli lideri Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövlətinin qüdrətinin artmasına öz töhfəsini verməkdədir. Məhz bu qüdrətin təcəssümüdür ki, bu gün Azərbaycan ondan daha zəngin ölkələrlə müqayisədə dünyanı bürümüş qlobal iqtisadi böhrandan ən az zərər görən bir ölkədir.

Biliklərə əsaslanan iqtisadiyyatda resurslara qənaət mühüm yer tutur. Daha doğrusu, tükənməyən insan biliyinin tükənə bilən maddi sərvətləri əvəz etməsi iqtisadi inkişafın əsas yollarından biridir. Son günlər dünyadakı iqtisadi böhranla əlaqədar tez-tez yada saldığımız qənaət anlayışı isə, əslində, tarixi inkişaf boyu həmişə insanı düşündürən əsas problemlərdən olmuş, iqtisadiyyatı qurmağın, səmərəliliyə nail olunmağın üsullarından biri hesab edilmişdir. Odur ki, uğurlu idarəetmə üçün nəyə və necə qənaət olunması məsələsi hələ kəskin olaraq gündəmə gəlməmişdən əvvəl onun haqqında düşünmək ən doğru seçim kimi həmişə özünü göstərmişdir.

Şübhəsiz, bir çoxları resurslara qənaət dedikdə həmişə özünü qıt şəkildə göstərən yanacaq-enerji ehtiyatlarına, yaxud strateji taxıl-ərzaq məhsullarına və ya sadəcə, pul-maliyyə resurslarına qənaətdən bəhs edirlər. Məsələn, çox tez-tez tullantı kimi atılan torbalarla dolu çörəyi, yaxud az qala səhər saat 10-a qədər yanılı qalan küçə işıqlarını və ya unudularaq gecə səhərə qədər yanılı qalan inzibati idarələrin pəncərələrindən gələn işıqları görəndə, bunlar axı kiminsə əməyidir deyə təəssüflənir, bunları edənləri qınayırıq. Ümumiyyətlə, qənaət müasir mədəni insanın bir həyat tərzi, onun cəmiyyətə hörməti, ətraf mühitə diqqəti, gələcək nəsillərə sevgisidir. Xülasə, öz fərdi tələbatından artıq maddi nemət mənimsəyib onu havaya sovuranlar müqəddəs “Qurani-Kərim”də necə qınanırsa, cəmiyyət də onlara eyni şəkildə bədməsrəf kimi qiymət verir. Lakin bilik iqtisadiyyatında ən dəyərli resurslardan biri məhz vaxt olduğundan, müasir tələbkar vətəndaşın, işgüzar insanın vaxtının boş yerə itirilərək onun dəyərdən salınması daha zərərli iqtisadi nəticələr verir ki, bu da, son nəticədə, digər maddi nemətlərin də qıtlığını yaradır. Çünki insana lazım olan bütün nemətlər elə insanın özü tərəfindən yaradılır.

Müasir dövrdə həm idarəetmədə, həm də istehsalın təşkilində havayı vaxt itkisinin aradan qaldırılmasında elektron xidmətlərdən istifadə bu sahədə yeni fəaliyyət üslubunun formalaşdırılmasına imkan yaradır. Bu tələbat inkişafın elə bir mərhələsində başlayır ki, bu zaman insanlar təkcə qloballaşmanın yaratdığı iqtisadi, sosial, mədəni tələbatların ödənilməsi üçün deyil, eyni zamanda yaşadığı ölkənin əksər idarəetmə institutları ilə yaranan qarşılıqlı məsələlərin, öz gündəlik həyatlarının və ya fərdi sahibkarlıq qayğılarının həlli zamanı həmin imkanlardan istifadə edə bilmə zərurəti duyurlar. Şübhəsiz, burada informasiya-kommunikasiya texnologiyalarının özünün çox sürətli inkişafı və onların müxtəlif sahələrdə tətbiqi imkanlarının genişlənməsi də mühüm rol oynayır. Dövrün tələbinə uyğunlaşmaq, vətəndaş-məmur münasibətlərində yeni düşüncə tərzini formalaşdırmaq baxımından bunlar məqsədəuyğun islahatlar hesab olunurlar. Dövlət orqanlarının fəaliyyətində şəffaflığın, operativliyin, çevikliyin artırılması xidmətlərin daha keyfiyyətli, rahat və müasir innovasiyalarla həyata keçirilməsinə və nəticə etibarilə, ölkə vətəndaşlarının rifah və məmnunluq səviyyəsinin təmin olunmasına xidmət edir.

Hazırda Naxçıvan Muxtar Respublikasında müxtəlif idarəetmə qurumlarının çox sayda elektron xidmətləri təklif olunmaqdadır. Muxtar respublikamızda “Elektron hökumət” layihəsi infrastrukturu üzrə görülən işlərin həcmi, bütün yaşayış məntəqələrində internetə çıxışın təmin olunması, dövlət idarələrinin, təhsil müəssisələrinin yeni nəsil kompüter avadanlıqları ilə təchiz edilməsi, əhalinin kütləvi şəkildə elektron xidmətlərdən istifadə etməsinə yönəlmiş maarifləndirici tədbirlər bu işlərin həyata keçirilməsi üçün çox mühüm əhəmiyyət daşıyır. Bu gün muxtar respublika sakinləri bank hesabının açılmasını, müxtəlif fəaliyyət növləri üçün lisenziyanın alınmasını, xidmət haqlarının onlayn ödənilməsini, əmtəə nişanının qeydiyyatdan keçirilməsini, pensiyaçılara məlumatların verilməsini və digər çox sayda xidmətləri asanlıqla internet vasitəsilə reallaşdıra bilirlər. Nəticədə, vətəndaşların və eləcə də dövlət qurumlarında çalışan məmurların vaxtına qənaət olunması, əməliyyatları daha operativ, daha az xərclə reallaşdırmaq imkanı yaranmışdır. Bu isə modern cəmiyyət quruculuğunun, çevik və şəffaf idarəetmənin təmin edilməsinə öz müsbət təsirini göstərir.

**Əli CABBAROV**

# Naxçıvanın arxeoloji xəzinələri



*Azərbaycan Respublikasının ayrılmaz hissəsi olan Naxçıvandakı Erkən Dəmir dövrünə aid arxeoloji abidələr İsa Məsihdən əvvəl və sonrakı dövrün tarixi inkişaf proseslərinin öyrənilməsində mühüm əhəmiyyətə malikdir. Bu baxımdan Naxçıvanın arxeoloji abidələri Avropa və Asiyanın arxeoloji abidələrini, qədim memarlıq incilərini tədqiq edən mütəxəssis və alimlərin diqqətindən kənarda qalmamalıdır. Belə ki, bu ərazidəki İlikliqaya, İrinçöy və İydəli piri unikal arxeoloji abidələrdəndir.*

İlikliqaya nekropolu Ordubad rayonunun Tivi kəndinin cənub-şərqində yerləşir. Nekropol təsərrüfat işləri zamanı dağıdılmışdır. Yerli alimlər həmin ərazidən Son Tunc-Erkən Dəmir dövrünə aid maddi-mədəniyyət nümunələri aşkar etmişlər. Aşkar olunan keramika nümunələri İlikliqaya yaşayış yerində qədim ticarət və təsərrüfat sahələrinin inkişaf etdiyini sübuta yetirir. Ərazidən tapılan küpə, kasa, təsərrüfat alətləri, at karvanlarının qalıqları və vaza tipli qabların parçalarından ibarət boz rəngli keramika nümunələri yaxşı bişirilmişdir. Aşkar olunmuş arxeoloji materiallara əsasən yaşayış yerini eramızdan əvvəl II minilliyin sonu və I minilliyin əvvəllərinə aid etmək olar.

Digər qədim arxeoloji abidə isə Şərur rayonunun Şahbulaq kəndinin cənub-şərqində yerləşən İrinçöy abidəsidir. Abidə 1500 kvadratmetr ərazini əhatə edir. Burada aşkar olunmuş arxeoloji materiallar sübut edir ki, Şərur rayonunun ərazisi beynəlxalq səviyyəli tədqiqat yeridir. Yerli alimlər tərəfindən aparılan tədqiqatlar nəticəsində ərazidəki xarabalıqlardan tapılan unikal keramika məmulatları çəhrayı rəngdə bişirilmiş, forma verilməyən qab parçalarından ibarətdir. Bu keramika nümunələri orta əsrlər dövrü üçün xarakterikdir. Bu qədim yaşayış yerində iri daşlardan hörülmüş divar qalıqlarına da rastlanmışdır. Yerli mənbələrdə verilən məlumatlara görə, yaşayış yerinin bünövrəsi böyük daşlardan ibarətdir və fərqli memarlıq quruluşuna malikdir.

Babək rayonunun ərazisi də dünya alimlərinin cavabsız qalan suallarına cavab tapa biləcəyi tarixi yerlərdəndir. Rayonun Cəhri kəndinin şimal-şərqində 46 min kvadratmetr ərazini əhatə edən və orta əsrlər dövrünə aid İşıqlar abidəsi yerləşir. Yaşayış yerinin mərkəzində "Xərtənli bulaq" adlanan çeşmə vardır. Vaxtilə Cəhri kəndindəki Canıçaydan çəkilən arxın qalıqları indi də qalmaqdadır. Bu arxın suyundan son vaxtlara qədər əkinçilikdə istifadə edilmişdir. Təbii aşınma nəticəsində yaşayış yerində əmələ gəlmiş yarğanlarda mədəni təbəqənin qalınlığı aydın görünür və bura Avroasiyanın torpaq xüsusiyyətlərini tədqiq edən alimlər üçün diqqət çəkən ərazi ola bilər. Bəzi yerlərdə mədəni təbəqənin qalınlığı 3-5 metrdir. Abidənin digər hissəsində dördkünc formalı çalalara




və divar qalıqlarına rast gəlinir. Yaşayış yerinin böyük bir hissəsi (təqribən 16 min kvadratmetrlik sahə) kül yığınları ilə örtülmüşdür. Kül yığınları içərisində gil məmulatların qalıqlarına təsadüf olunur. Belə kül yığınları orta əsrlərə aid Nəhəcir yaşayış yerində də qeydə alınmışdır. Müşahidələrə əsasən demək olar ki, bu kül yığınları dulus kürələrinin fəaliyyəti ilə bağlı olmuşdur. Aşkar olunmuş arxeoloji materiallara əsasən İşıqlar yaşayış yerini III-XVII əsrlərə aid etmək olar. Ərazidə aşkar edilmiş materialları iki dövrə aid etmək olar. Birinci dövrə aid olan tapıntılar boz, qara, çəhrayı rəngdə bişirilmiş qab qırıqlarıdır. Onlar ilk orta əsrə aid edilir. İkinci dövrə aid materiallar isə orta əsrlərin inkişaf etmiş mərhələsi üçün xarakterik olan maddi-mədəniyyət nümunələridir. Onlar, əsasən, çəhrayı rəngdə bişirilmiş, həndəsi və nəbati ornamentlərlə bəzədilən qablardır. Bu qabların üzərinə naxış vurulduqdan sonra şəffaf və rəngli şirlə örtülmüşdür. Adı qədim türk tayfası ilə bağlı olan bu yaşayış yerinin nekropolu ondan cənubda yerləşən kiçik təpənin üzərində yerləşir. Təbii aşınma nəticəsində buradakı müsəlman qəbirlərinin əksəriyyəti dağılmışdır.

İydəli piri isə Kəngərli rayonunun Şahtaxtı kəndində yerləşir. Pirin ətrafı orta əsrlər dövründə yaşayış məskəni kimi istifadə edilmişdir. Pir qayanın təbii oyuğunda yerləşir. Onun ətrafı qaya parçaları ilə dördkünc formada hörülmüşdür. Pirin ətrafında kəhriz və divar qalıqları mövcuddur. Divarın qalınlığı bəzi yerlərdə 50-60 santimetrə çatır. Bəzi yerlərdə iri qaya parçalarından hörülmüş divar qalıqları da aşkar olunmuşdur. İydəli piri Naxçıvanın dini tarixi ilə dərindən bağlı olan çox məşhur ziyarətgahlardandır. İnsanlar tez-tez bu piri ziyarət edirlər. Araşdırmalar zamanı pirin ətrafından qədim və orta əsrlərə aid keramika nümunələri də aşkar edilmişdir. Pir Azərbaycan xalqı arasında yayılan su və od inancı ilə bağlıdır və buradan tapılan maddi-mədəniyyət nümunələrini eramızdan əvvəl II-I minilliklərə aid etmək olar.

Naxçıvan dünya arxeologiyasının xəzinəsidir. Görkəmli dövlət xadimi Heydər Əliyevin doğulduğu Naxçıvan torpağı dinimədəni abidələri və qədim arxeoloji zənginlikləri ilə dünyanın qədim və orta əsrlər tarixinə mühüm töhfələr verən bir ərazidir.

**Peter TASE**
**13.01.2016**
**Amerika Birləşmiş Ştatlarının "Foreign Policy News" və "Eurasia review" qəzetləri**



# Yeni məktəb binasının sevinci

***Naxçıvan şəhərindəki Atatürk küçəsində musiqi çağlayan bir ünvan var. O ünvan ki möhtəşəm görünüşü ilə seçilən 2 nömrəli Uşaq Musiqi Məktəbidir. Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən il dekabr ayının 1-də Naxçıvana səfəri çərçivəsində məktəbin açılışında iştirak edib.***

Məktəbin yeni binadakı fəaliyyəti ilə oxucularımızı yaxından tanış etmək üçün həmin ünvana üz tutduq. Qeyd edim ki, köhnə binada yerləşdiyi vaxtlarda dəfələrlə bu musiqi ocağının fəaliyyəti haqqında qəzetimiz üçün yazılar hazırlamışıq. Hər dəfə də burada darısqallıqdan, şəraitsizlikdən həm müəllimlər, həm də valideynlər narazılıq edirdilər.

1987-ci ildə yaradılan bu məktəb üçün ötən il 4 mərtəbəli yaraşıqlı bina ucaldılıb. Burada 300 şagird müxtəlif musiqi alətlərində ifaçılıq sənətinə, həmçinin milli və klassik musiqinin sirlərinə yiyələnir. Qeyd edək ki, 4 şöbədə 7 ixtisas üzrə tədris aparılır. Təlim və tədrisin yüksək səviyyədə aparılması üçün bütün zəruri tədbirlər görülüb. 39 fərdi sinif otağı, tədris otaqları və müxtəlif tədbirlərin keçirilməsi üçün zal ən müasir avadanlıqlarla təchiz edilib.

Məktəbin sinif otaqlarını gəzirik. Hər ixtisas üçün ayrı-ayrı sinif otaqları var. Otaqların birindən gələn tar səsi görkəmli şairimiz Mikayıl Müşfiqin qələmindən süzülən "Oxu tar, oxu tar, səni kim unudar?" sətirlərini yada salır. Gənc müəllim elə böyük həvəslə şagirdinə tarın incəliklərini öyrədir ki, ayaq saxlayıb onları seyr etməmək mümkün deyil. Tarın ətrafa yayılan səsi insanın daxili aləminə güclü təsir göstərir. Müəllimin dərsinə mane olmuruq. Məktəbin direktorundan müəllim haqqında öyrənirik. Deyir ki, Rəhman Quliyev Naxçıvan Musiqi Kollecinin məzunudur. 2011-ci ildən məktəbdə tar müəllimi kimi fəaliyyət göstərir.

Sevindirici haldır ki, məktəbin müəllimlərinin əksəriyyəti Naxçıvan Musiqi Kollecinin məzunlarıdır. Həmin məzunlardan Vüsalə İsmayılovanın dərsində də iştirak etdik. Musiqi nəzəriyyəsini tədris edən Vüsalə müəllimə notlar haqqında şagirdlərə məlumat verirdi.

Dərslərə mane olmayıb bəzi siniflərdə tədris prosesini izləyib, fotoşəkillərini çəkdik. Sonra məktəbin müəllimləri ilə həmsöhbət olduq. Şəhla Pənahlı onlara göstərilən qayğını yüksək dəyərləndirdi:

– Uzun illərdir, bu məktəbdə müəllim işləyirəm. Köhnə məktəbimizdə çətin şəraitdə dərs keçirdi. Musiqi alətlərimiz yox idi. Siniflər az olduğundan növbə ilə dərs keçirdik. Şəhərin mərkəzində yeni tikilmiş 4 mərtəbəli musiqi məktəbi istifadəmizə verildi. Burada uşaqların yaxşı təhsil alması üçün tam şərait yaradılıb. İşıqlı sinif otaqları, yeni musiqi alətləri vardır, istilik sistemi də yerində. Hər bir şöbə üçün sinif otaqları, konsertlərin keçirilməsi üçün böyük zal istifadəmizdədir. Bu gün uşağının bu məktəbdə oxumasını istəyən valideynlərin də sayı artıb.

Şəhla müəllimə onu da bildirdi ki, məktəbdə Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsinin və Naxçıvan Musiqi Kollecinin məzunları olan 50 nəfərlik müəllim heyəti çalışır.



Otaqların birindən gələn səs istər-istəməz bizi o tərəfə yönəltdi. O səs nağara səsi idi. Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Qurban Qurbanov hər zamankı kimi həvəslə şagirdlərinə nağaranın sirlərini öyrədirdi. O dedi:

– Naxçıvanda bir sıra qədim musiqi alətlərimiz bərpa olunur, onlar təbliğ edilərək yaşadılır. Bunlar sırasında nağara da var. Muxtar respublikada bu alətdə ifadə etmək istəyən yeniyetmə və gənclərin sayı getdikcə artır. Əvvəllər bina yararsız halda olduğu üçün bu ixtisasa uşaq qəbulu məhdud sayda aparılırdı. İndi yeni məktəb binamızda hər cür imkan var. Bundan sonra yolumuz uzundur. Məqsədimiz bizim üçün yaradılan yüksək şəraitdən səmərəli istifadə edərək uşaqlarda milli musiqi alətlərinə və musiqi təhsilinə marağı artırmaq, milli dəyərləri yaşadaraq gələcək nəsillərə ötürməkdir.

Məktəbin birinci mərtəbəsində valideynlərlə də həmsöhbət olduq. Səkinə Cəbrayılovanın dediklərindən:

– Son illərdə muxtar respublikada uşaqların hərtərəfli inkişafı, istedad və bacarıqlarının üzə çıxarılması istiqamətində həyata keçirilən tədbirlər biz valideynləri də ürəkdən sevindirir. Bu, gələcəyimizə qayğının ən böyük ifadəsidir. Ölkə başçısının bu məktəbin açılışında iştirakı da bunu sübut edir. Sevinirik ki, yeni məktəbdə yaradılan şərait uşaqlarımızın yaxşı musiqi təhsili almasına imkan verir. Bunun üçün dövlətimizə minnətdarıq.

*Bu bizim musiqi məktəbinin yeni binasına ilk gəlişimiz idi. Bura gəlməkdə məqsədimiz yeni məktəb binasının məktəb kollektivinə yaşatdığı sevincin təəssüratlarını burada çalışanlarla bölüşmək idi. Yaradılan şərait gələcəkdə, heç şübhə yoxdur ki, bu məktəbin şagirdlərinin müxtəlif müsabiqələrdə qazandığı uğurların sayını artıracaq, biz də məktəbin əldə etdiyi nailiyyətləri oxucularımıza çatdıracağıq. Elə bu ümidlə də şəhərimizin simasına daha bir gözəllik qatan məktəbdən ayrılırıq.*

# Nəzarətçi-müəllimlər üçün seminar-məşğələlər keçirilir

Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) Naxçıvan Muxtar Respublikası Regional Bölməsi iş planına uyğun olaraq, hər il olduğu kimi, bu il də qrafik üzrə nəzarətçi-müəllimlər üçün seminar-məşğələlərin keçirilməsinə başlayıb. İlk məşğələlər Şərur, Sədərək, Şahbuz və Kəngərli rayonlarında keçirilib. Məşğələlərə, ümumilikdə, 230 nəzarətçi-müəllim cəlb edilib.

Bölmənin rəhbəri Sabir Məmmədovun qəzetimizə verdiyi məlumata görə, məşğələlərin keçirilməsində məqsəd imtahan texnologiyalarını və imtahanın gedişi ilə bağlı prosedur qaydalarını izah etməkdən, nəzarətçi-müəllimlərin fərdi keyfiyyətləri ilə yaxından tanış olmaqdan, şəxsi anket məlumatlarını dəqiqləşdirməkdən, abituriyent auditoriyasının – imtahan zalının idarə olunmasında professionallıq baxımından mühüm məqamları qeyd etməkdən ibarətdir.

Məlumatda o da bildirilir ki, imtahan prosedurlarının daha səmərəli izahını təmin etmək üçün məşğələlər 20 nəfərlik qruplarla keçirilir. Məşğələlərdə nəzarətçilərin imtahan prosesi ilə əyani surətdə tanış olmaları məqsədilə imtahan texnologiyası barədə film nümayiş etdirilir, imtahanın gedişi ilə bağlı prosedur qaydalar izah olunur.

Seminar-məşğələlərdə iştirakçıların sualları cavablandırılır, nəzarətçi-müəllimlər üçün keçirilən onlayn testin nəticələri müzakirə edilir, nəzarətçi-müəllimlərin şəxsi anket məlumatları dəqiqləşdirilir.

İştirakçılar (xüsusən ilk dəfə cəlb olunan, təcrübəsi az olan nəzarətçi-müəllimlər) TQDK tərəfindən aprel-may aylarında keçiriləcək sınaq imtahanlarına cəlb olunacaqlar. Bu da onların seminarlarda əldə etdikləri nəzəri biliklərin təcrübədə tətbiqinə kömək göstərəcək. Sınaq imtahanlarında nəzarətçi kimi özünü doğruldan müəllimlər test imtahanlarına cəlb olunacaqlar.

Seminar-məşğələlər fevral ayının 10-dək davam edəcək.

**Sara ƏZİMOVA**

*Tarixin bütün mərhələlərində qadınla bağlı məsələlər, onların ictimai mövqeyi, cəmiyyətdə və ailədə tutduğu yer ciddi müzakirə obyekti olmuşdur. Xüsusən son yüzilliklərdə bu məsələ gündəmə daha tez-tez gətirilir. Müxtəlif peşə sahibləri qadınlarla bağlı problemlərə fərqli mövqedən yanaşırlar. Çox acınacaqlı haldır ki, qadına münasibəti, onu yüksəltməyi Şərqdən, İslam-Türk dünyasından öyrənən Qərbin bir sıra araşdırıcıları İslam-Türk xalqlarında qadınlara mənfi münasibət bəslənməsindən, onların hüquqsuzluğundan bəhs etməyə çalışırlar.*

# Qədim türklərdə, müasir ailə məişətində qadın, ana və uşaq münasibətləri

Bir məsələni qeyd etmək yerinə düşərdi ki, son illərdə belə cəfəngiyyatlara uymaqla özünü qərbli qadınlara oxşatmağa çalışan bəzi qızlarımız, analarımız "qərbləşmiş", "müasirləşmiş", milli dəyərlərdən qopmuşlar. Bir sıra tarixi gerçəklərə, İslam-Türk qadınının keçmişinə aid müəyyən məqamlara diqqət yetirək. Kimdir qadın? Hər şeydən öncə ana adını daşıyır bu uca yaradılış. Ana olmuş qadınların ictimai mövqeyi daha ucadır. Anaqadın and yeridir. Məhəmməd Peyğəmbərdən soruşurlar ki, öncə kimə ehtiram göstərək? Deyir: "Anaya". Bəs sonra kimə? Yenə deyir: "Anaya". Yalnız dördüncü dəfə soruşduqda "Ataya" cavabını verir. Bəli, İslam Peyğəmbərinin qadına, anaya münasibəti çox yüksək idi. Heç təsadüfi deyil ki, fəxri-kainat insanın arzusuna çatmaq istədiyi cənnətin anaların ayaqları altında olduğunu söyləyir. Müqəddəs kitabımız "Qurani-Kərim" kişilərə qadınların haqqını tanımağı hökm edir: "Kişilərin qadınlar üzərindəki haqları kimi, qadınların da kişilər üzərində müəyyən hüquqları var..." İslamda qadın ucadır, xüsusən ana-qadın. Tarixi məlumatlara, arxeoloji materiallara söykənərək demək olar ki, ərəblərdən fərqli olaraq, türklərdə İslamdan çox öncə qadınlar yüksək mövqeyə malik olmuşlar. Hər şeydən öncə qadına ana kimi böyük sayğı göstərilmişdir. Oğuzlarda "Ana haqqı Tanrı haqqı" adlanır. O ən yüksək məqamda dayanır. Evi yağmalanmış Qazan xan düşmən önünə gəlib deyir ki, bütün evimi, əhli-əyalımı, malımı, dövlətimi gətirmişsən sənin olsun:

*Qarıcıq anam gətürüb durursan,*
*mərə kafir, anamı vergil mana.*
*Savaşmadan, uruşmadan qayıdayım–geri*
*dönəyim, gedəyim, bəllü bilgil!*

Qazan xan hər şeyə, hətta xanımı Burla xatunun, oğlu Uruzun düşmən əlində qalmasına razıdır, təki anasını qurtarsın.

Bir cəhəti xüsusilə qeyd etməliyik ki, "Kitabi-Dədə Qorqud"da ailələr monoqom olmaqla təknikahlılıq mövcuddur. Yəni çoxarvadlılıq yoxdur. Qadınlar ərlərinə sadiqdirlər, onların uğrunda canlarını fəda etməyə hazırdırlar. Bu isə iki cəhətdən özünü göstərməkdədir: həyat yoldaşı və döyüş yoldaşı kimi. Yəni həyat yoldaşı bir çox halda əri ilə birgə döyüşə atılır, onun qorunmasında, xilasında iştirak edir.

Oğuz qadını təkcə ana deyil, o, bir döyüşçü, qəhrəmandır. Heç təsadüfi deyil ki, oğuz igidləri özünə qadın axtararkən deyirdilər: "Mən yuxudan durmadan o durmuş ola! Qara quc atına minmiş ola, baş kəsə, qan tökə". Bəli, ər meydanında qadın-ər istəyirdilər. Banuçiçək Beyreklə sınaşarkən, Selcanxatun Qanturallı ilə birgə düşmənə qarşı döyüşərkən, Burla xatun oğuz bəylərinin səfində Qazan xanı azad etmək üçün meydana atılarkən bunları sübut etmişlər. Bu yetənək oğuz-türk qadınına tarixin çox uzaq keçmişindən gəlirdi. İran şahı Kirin ordusunu məğlubiyyətə uğradıb, onu qanına qəltan edən Massaget hökmdarı Tomrisdən, ağlı ilə İskəndəri ram edən Bərdə hökmdarı Nüşabədən gəlirdi bu hünər.

Türkün ulu babaları skif, sarmat, sak qövmlərində, amazonkalarda qadınlar daha döyüşkən idi. Bu haqda Herodot yazır ki, skif-sarmat qadınları öz ərləri ilə hətta təklikdə ova çıxır, hərbi yürüşlərdə iştirak edirdilər. Evlənmə adətinə gəlincə, düşmən öldürüb, baş kəsməyən qız ərə gedə bilməz. Diqqət yetirsək, bu adət "Kitabi-Dədə Qorqud"da oğuz bəylərinin axtardığı qızlara da xasdır.

Döyüşçü qadınların yüksək mövqeyə malik olduğunu sübut edən faktlara Naxçıvan ərazisində aparılmış arxeoloji qazıntılar zamanı da rast gəlinmişdir. 2004-cü ildə arxeoloq Bəhlul İbrahimli ilə birlikdə Xarabagilanda, Plovdağ adlanan ərazidəki abidələrdə araşdırmalar apararkən döyüşçü (şahzadə) qadın məzarı aşkar edilmişdir. Qəbrin böyüklüyü, qadının döyüş əsləhəsi, həmçinin müxtəlif muncuqlardan, tuncdan olan bəzəkləri ilə birgə dəfni onun yüksək nüfuzundan xəbər verirdi. Mərhumun sol çiynindən içərisində ucluğu dəvə gönü və çaxmaqdaşından düzəldilmiş 14 qarğı ox olan sadaq asılmışdı. Deməli, tarixiliyi, ənənəvi münasibətləri min illər boyu qoruyub saxlayan türk irqi qadına həm döyüşçü, həm də ana kimi yüksək qiymət vermişdir. Azərbaycan türkünün ər və arvad haqqında dediyi bir ifadə var: "Həyat yoldaşı". Yəni həyatın bütün cəhətlərini bölüşənlər.

Qadınla bağlı bir məsələyə də münasibət bildirmək yerinə düşərdi. Ana südü məsələsi. Çox qədimdən ana südü uşağın bəslənməsində əsas vasitə hesab edilmişdir. İslam dinində uşağın ana südü ilə bəslənməsinə böyük önəm verilmişdir.

"Qurani-Kərim"in "Bəqərə" və "Talaq" surələrindən aydın olur ki, körpələr 2 yaşı tamam olana qədər ana südü ilə bəslənməlidirlər. Bu ayələrin hökmünə söykənərək bir sıra araşdırıcıların, təfsirçilərin yorumlarına əsasən ana südünə böyük üstünlük verilməsinin səbəblərini belə xarakterizə etmək olar. Hər şeydən öncə ana südünün tərkibi uşağın yaşına görə dəyişə bilir. Doğuşun ilk günlərindən ana südü daha qüvvətli olur. Bu süddə protein və təbii maddələr digər südlərə nisbətən daha çox olur. Xalq arasında "uşağın ağuzlanması" adlanan inama görə, uşağa doğuşdan sonra ana südü verilməsə, o, gələcəkdə hər cür xəstəliklərə tutula bilir.

Mütəxəssislər deyir ki, uşağın yaşı dəyişdikcə südün tərkibi də dəyişir. Ana südünün üstün xüsusiyyətlərindən biri onun təmiz və mikrobsuz olmasıdır. Lakin digər südlər sağılarkən, bişirilərkən onlara mikrob qarışması, tərkibinin dəyişməsi ehtimalı çox böyükdür.

Xalq arasında ana südündən müalicə məqsədilə də istifadə edilir. Uşaqların gözü, qulağı ağrıyanda ana südü salınır. Onlar sancılandıqda yovşanın üstünə ana südü sağılır və uşağa verilir.

Ana südünün digər üstün xüsusiyyətləri doqquz ay müddətində ana bətnində anadan qidalanan uşağın bu prosesi davam etdirməsidir. Ana südünün istiliyi bədən hərarətində olmaqla birbaşa qəbul edildiyindən heç bir dəyişikliyə uğramır.

Uşağın ana südü ilə bəslənməsi ana və uşaq arasında gələcək münasibətlərdə, valideyn-övlad sevgisində böyük rol oynayır. Qədim oğuzlarda övladın başına bir iş gəlsəydi, anaya agah olardı:

***Çıqsun bənim kor gözüm, a Dirsə xan,***
***yaman səgrir.***
***Kəsilsün oğlan əmən süd damarım***
***yamansızlar.***

Ana südü halallıq rəmzi sayılırdı: "Ananın südü kimi halal olsun". Deməli, ən böyük halal ana südüdür. Vücudun yetişdirdiyi əvəzsiz qidadır ana südü.

Türklərdə ana südü o dərəcədə müqəddəs sayılıb ki, qız ərə verilərkən ana südünün əvəzi olaraq oğlan evindən "süd pulu" (ana südünün halallığı üçün) alınıb. Bir sıra türk xalqlarında ana südü haqqı olaraq oğlan evi qız evinə inək verərdi.

Naxçıvanda uşağın südünə oxşaması inamı vardır: "südünə çəkib". Ən yaxşı uşaqlar, xüsusən qız uşaqları haqqında deyilən "halal süd əmmiş", pis, yaramaz adamlarla bağlı işlədilən "südü xarab" ifadələri südün insanın formalaşmasında böyük rol oynadığını göstərir. Yaxşı xatırlayıram, ağsaqqallardan biri ilə söhbət zamanı bir uşaq salam vermədən yanımızdan keçib yaxınlıqdakı ağacın budağını qırdı. Ağsaqqal dedi: "Əhsən, südünə çəkibsən". Soruşdum ki, südü deyəndə nəyi nəzərdə tutur? Cavab verdi ki, indikilərin çoxusu botulməndir (yəqin ki, uşaqlara süd və digər duru yeməklərin verildiyi butulkanı nəzərdə tutub). Ana südü uşağın təkcə fiziki inkişafında, sağlamlığında deyil, onda insani keyfiyyətlərin formalaşmasında da ciddi rol oynayır. Müasir dövrdə uşaqlara verilən yeməklərlə bağlı ziddiyyətli fikirlər daha geniş yayılmışdır.

Buradaca ailədə uşaqların sayı məsələsi üzərində də qısaca dayanmaq istərdik. Keçmiş SSRİ-də bu problemlə bağlı müxtəlif elmi toplantılarda, müzakirələrdə iştirak edən bir araşdırıcı, həmçinin 5 övlad atası kimi məni bu problem çox narahat edir. Yaxın keçmişdə təbii artıma görə qabaqcıl ölkələr sırasında olan vətənimizdə indi ailədə uşaqların azlığı ilə bağlı ciddi problemlər yaranmaqdadır. Bir çoxları bunu iqtisadi amillər, tərbiyə prosesindəki çətinliklər ilə əlaqələndirməyə çalışırlar. Lakin imkanlı ailələrdə də uşaqların sayının azlığı (əsasən 1-2) belə düşünməyə imkan verir ki, bu daha çox "müasirləşmək", "mədəniləşmək" və sair amillərlə bağlıdır. Unutmayaq ki, bu Vətən üzərində övladları yaşadıqca Vətəndir. Unutmaq olmaz ki, 2 övlad təbii artımı saxlaya bilməz. Belə getsə, bir müddətdən sonra Avropanın bir sıra xalqlarının düçar olduqları təbii azalma problemi ilə üzüzə qalacağıq.

*Bir haşiyə çıxmaq istərdim:* 1986-cı ildə Moskva şəhərində keçirilən bir beynəlxalq konfransda ailə problemləri, o cümlədən ailədə uşaqların sayı məsələsi müzakirə edilirdi. Təbii ki, başlıca fikir 2+ idi. Bir övlad ideyası ilə kifayətlənənlər də vardı ki, onlar öz fikirlərini müxtəlif iqtisadi, mənəvi-psixoloji amillərlə əsaslandırmağa çalışırdılar. Bir qadın çıxış edib dedi ki, bir uşaq ailənin və cəmiyyətin hər an fəlakətlə üz-üzə durmasıdır. O bildirdi ki, biz bu fəlakəti yaşamışıq, yeganə övladımızı 26 yaşında itirdikdən sonra övladsız qaldıq. Fikirlərini psixoloji cəhətdən əsaslandıran müəllif bir uşağın böyüdülməsinin nə qədər çətin olduğunu anlatdı. Bəli, bu bir həqiqətdir ki, müasir tələblər səviyyəsində çox uşaq böyütmək çətindir. Amma nə dərəcədə çətin olsa da, keçmiş illərlə müqayisədə cəmiyyətimizin maddi və mənəvi cəhətdən inkişafı göz önündədir. Ulularımız gəlinlərimizə 7 oğul, 1 qız istəyib. Biz isə bu Vətənə sahib çıxmaq, insanlığı, milli kimliyimizi qorumaq, gələcəkdə də millət kimi var olmaq üçün 2+ tərəfdarıyıq. İstərdik ki, bu 2+1 və daha çox olsun.

*Müasir tibb elmi sübut edir ki, uşaqlarının sayı bir neçə olan qadınlarda süd vəzi xərçəngi digərlərinə nisbətən az müşahidə edilir. Ümumiyyətlə, uşağa süd verməyin ananın sağlamlığına müsbət təsiri ilə bağlı çoxlu faktlar mövcuddur. Təbii ki, bütün halları ilə analar, qadınlar cəmiyyətin yüksək varlıqlarıdırlar.*

**Hacıqadir QƏDİRZADƏ**
*AMEA-nın müxbir üzvü*

## *"Ənənəni qoruyaq, evdə xalça toxuyaq"* sosialyönümlü ictimai iş davam etdirilir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilən "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" adlı sosialyönümlü haqqıödənilən ictimai iş təşkil edilib.*

Evdə müvafiq ölçüdə xalçaların toxunması üçün Şərur, Babək, Ordubad, Culfa, Şahbuz rayonlarında və Naxçıvan şəhərində, ümumilikdə, 11 nəfər xalçatoxuyanla əmək müqaviləsi bağlanıb və onlar xalça toxumaq üçün bütün avadanlıqlarla materiallarla təmin ediliblər.

Bu istiqamətdə həyata keçirilən tədbirlər sosial qayğıya ehtiyacı olan şəxslərin rifahının yüksəlməsinə, habelə milli ənənələrimizin yaşadılmasına xidmət edir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilən "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq sosialyönümlü ictimai işə cəlb edilən sosial qayğıya ehtiyacı olan 27 şəxs tərəfindən 35 xalça toxunmuş, onların satışı təşkil olunmuşdu.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Güləş üzrə yoldaşlıq görüşü



Dünən Naxçıvan Şəhər Uşaq-Gənclər İdman Məktəbinin idman zalında 2 fevral – Gənclər Günü münasibətilə güləş üzrə yoldaşlıq görüşü keçirilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Güləş Federasiyasının birgə təşkil etdiyi görüşdə "Naxçıvan" və "Babək" komandalarının güləşçiləri mübarizə apardılar.

Yarışdan öncə çıxış edən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov bildirib ki, muxtar respublikada gənclər daim diqqət mərkəzindədir. Onların idmana cəlbi, zərərli vərdişlərdən uzaq olmaları üçün tez-tez belə tədbirlər təşkil edilir.

İdmançılar 10 çəki dərəcəsində mübarizə apardılar. Daha üstün olan "Naxçıvan" komandasının yetirmələri babəkli həmkarlarını 7:3 hesabı ilə məğlub ediblər.

Sonda qalib komandaya diplom təqdim olunub.

## Şərurda idmançılar üçün seminar

*Şərur Rayon Olimpiya-İdman Kompleksində idmançılar üçün seminar təşkil olunub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Şərq Döyüşü Sənəti Federasiyasının birgə təşkil etdiyi seminarda federasiyanın rayon üzrə bölmələrinin 40-dan çox idmançısı iştirak edib.*

Seminarı giriş sözü ilə açan federasiyanın sədr müavini Cavanşir Salayev bildirib ki, belə seminarların təşkili muxtar respublikada idmanın inkişafına dövlət qayğısının ifadəsi kimi dəyərləndirilir. Federasiya və nazirliyin belə tədbirləri təşkil etməkdə məqsədi rayonlarda yeniyetmə və gəncləri idmana cəlb etmək, onları zərərli vərdişlərdən uzaq tutmaqdır.

Gənclər və İdman Nazirliyi Aparatının Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov isə vurğulayıb ki, nazirlik muxtar respublikada fəaliyyət göstərən federasiyalarla birgə ötən il də belə seminarlar keçirib. Seminarlarda Azərbaycanın tanınmış məşqçiləri iştirak etməklə, öz təcrübələrini gənc idmançılara aşılamağa çalışıblar.

Seminarda Azərbaycan Respublikasının Əməkdar məşqçisi Hidayət Şabanov iştirak edib və idmançılara öz məsləhətlərini verib.

Analoji seminar Naxçıvan şəhərində də təşkil edilib.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 99